


*Vətən müharibəsində torpaqlarımızın düşmən tapdağından azad olunmasında Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) misilsiz xidmətləri oldu. Onların qayalara dırmaşaraq Şuşa şəhərini azad etməsi dünya hərb tarixinə düşdü. Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu döyüş tapşırığını bacarıqla icra edən hərbçilər Şuşa əməliyyatının böyük zəfərə çevrilməsində mühüm rol oynadılar. Xüsusi təyinatlı, eləcə də onlara dəstək verən qüvvələr qarşıya qoyulan tapşırığı tam şəkildə yerinə yetirməyə müvəffəq oldular. Şuşa işğal olunmuş Azərbaycan ərazilərinin ən yüksək nöqtələrindən birincisidir. Onun azad olunması əməliyyatı da Böyük Vətən müharibəsinin zirvə nöqtəsidir.*

*Əməliyyata elə heyət cəlb olundu ki, onun icrasında kiçik də olsa səhvə yol verilmədi. Şanlı qələbəyə öz töhfəsini verən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülən 83 hərbçidən 36-sı məhz Xüsusi Təyinatlı Qüvvələrin mənsubudur. Azərbaycan ictimaiyyəti üçün Xüsusi Təyinatlı Qüvvələr ilk növbədə iftixar, qürur mənbəyidir. Vətən uğrunda şəhid olanları hər zaman ehtiramla yad edir, ruhları qarşısında sonsuz minnətdarlıq hissi ilə baş əyirik.*

# İKİ İGİDİN həyat hekayəsi

## Qələbə günü şəhid oldu



Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızdan biri də Tural Əhədovdur. 12 oktyabr 1993-cü ildə Lerik rayonunun Çökərə kəndində anadan olan Turalın uşaqlıq illəri doğulduğu kənddə keçib. 2009-cu ildə 8-ci sinfi başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, 2012-ci ildə liseyi bitirdikdən sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2016-cı ildə məktəbi leytenant rütbəli tankçı kimi bitirib.

2018-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin kursunda oxuyan Tural müvəffəqiyyətlə başa vurduqdan sonra "N" saylı hərbi hissədə qrup komandirinin müavini vəzifəsində xidmət etməyə başlayıb. 2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Kəşfiyyatçı Artilleriya Korrektədedici" ixtisası kursunu fərqlənmə ilə bitirib. Həmin il Tural baş leytenant rütbəsinə yüksəlib. 30 aprel 2020-ci ildə "N" saylı hərbi hissənin yaranmasının 21-ci ildönümünün qeyd edilməsi münasibətilə nizam-intizamı ilə seçildiyinə görə baş leytenant Əhədov Tural Rahil oğlu "Fəxri Fərman"la təltif olunub. Bundan başqa, Tural nümunəvi xidmətinə görə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə də təltif edilib.

Vətən müharibəsinə Xüsusi Təyinatlı Qüvvələrin zabiti, baş leytenant Tural Əhədov qrup komandirinin müavini, sonra isə qrup komandiri kimi qatılıb, torpaqlarımızın düşmən əsarətindən azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun qəsəbə və kəndlərinin, Şuşa şəhərinin işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və qəhrəmanlıqlar göstərərək düşmənə sarsıdıcı zərbələr endirib, çoxlu sayda canlı qüvvəsini məhv edib. Döyüş zamanı baş leytenant iki döyüş yoldaşı ilə birgə düşmən tərəfindən mühasirəyə alınıb. Bu zaman Tural düşmənə sinə gərərək 70-ə yaxın canlı qüvvəsini məhv edib. Göstərdiyi şücaətlərlə adını tarixə yazan baş leytenant Tural Əhədov 8 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid doğulub, boya-başa çatdığı Lerik rayonunun Çökərə kənd qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Tural Əhədov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

## Əsl dost və vətənpərvər döyüşçü



Xüsusi təyinatlı şəhid Babayev Rəşad Ağabəy oğlu 4 iyun 1992-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Uşaqlıqdan cüdo ilə məşğul olub, yeniyetmələr arasında keçirilən yarışlarda 20-dən çox qızıl, bürünc medallar qazanaraq "Cüdo üzrə Azərbaycan Yeniyetmələr Çempionu" adına layiq görülüb. 2009-cu ildə Rəşad 277 saylı idman təmayüllü tam orta məktəbi bitirib. 2013-cü ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunu olub.

Rəşad ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Müddətdən artıq hərbi xidmətdə olub, ordumuzun Xüsusi Təyinatlı Qüvvələrinin sıralarına daxil olub. 2014-cü ildə XTQ-nin hərbi hissəsində həqiqi hərbi xidmətə başlayıb. 24 noyabr 2017-ci ildə isə gizir rütbəsini alıb. Rəşad, həmçinin hərbi hissədə qrup komandiri kimi də fəaliyyət göstərib. Xüsusi təyinatlı qəhrəmanımız 2016-cı ildə Türkiyənin İzmir şəhərində keçirilən "EFES-2016" beynəlxalq təlimlərinin fəal iştirakçısı olub, sertifikatla təltif edilib. Xüsusi təyinatlı gizir həmçinin "Qüsursuz xidmətə görə" III dərəcəli medalı və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.

Rəşad Vətən müharibəsində Murovdağ zirvəsi, Suqovuşan, Cəbrayıl, Füzuli və Xocavənd məntəqələrinin düşməndən azad edilməsində ön sıralarda şücaət göstərib. 10 oktyabr 2020-ci ildə Xocavənd rayonu Hadrud qəsəbəsi istiqamətində gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edərək, şəhidlik zirvəsinə ucalıb.

Vətən müharibəsindəki qüsursuz xidmətlərinə görə Rəşad Babayev ölkə Prezidentin sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Rəşadın döyüş yoldaşının söylədiklərindən: "Hadrutun coğrafi relyefi çox qəlizdir, dərə, təpə qarışıqdır. Ermənilər burada fərqli-fərqli mövqelərdə möhkəmlənmişdi. Bir yüksəkliyi götürüb ikinciyə keçdik, Rəşad mərminin haradan gələcəyini yox, yalnız düşməni məhv etməyi düşünürdü. Dəfələrlə demişdik ki, "Rəşad, bəzi məqamlarda emosiyana hakim ol". Ataş məqamında yerə uzanmırdı, elə ayaq üstə vuruşurdu. Çox cəsur və qorxmaz idi, gözünü qisas hissi bürümüşdü. Həm dəyərli dost idi, həm də əsl vətənpərvər döyüşçü. Ruhu şad olsun"...

Yaxın dostu Orxan Əhmədli Rəşadın şəhid olmamışdan əvvəl ən son onunla danışdığını deyir: Rəşadla biz qardaş kimi çox yaxın olmuşuq. Rəşad oktyabrın 6-sı sonuncu dəfə mənimlə danışdı, "Biz ən qabaqdayıq, bizdən qabaqda heç kim yoxdur", - dedi. Mən də "Özündən muğayat ol, qardaşım", - deyə cavab verdim.

Oktyabrın 5-dən ürəyim dostumdan narahat idi. Rəşad ayın 10-u şəhid olub, 13-ü ailəsinə deyiblər. Bir gün sonra dəfn edilib, amma mənə deməyiblər. Sonra qardaşı mənə zəng elədi, yalnız onda şəhid olduğunu bildim. 3 qardaş idilər. Rəşad çox güclü idmançı idi, mərd idi, cəsur idi. Düzdür, onun döyüş yolu barədə çox şey danışmasalar da, dostları deyir ki, "Rəşad olmasaydı, biz indi şəhid olmuşduq". Bir dəfə döyüş vaxtı Rəşadın dostu əlindəki qumbaranı açıb ani olaraq yerində donub, qalıb. Bunu görən Rəşad cəld gəlib, onun əlindəki qumbaranı alaraq ermənilərə tərəf atıb və düşməni məhv edib. Döyüş yoldaşları istirahət edən vaxt da Rəşad dayanmırmış, ancaq vuruşurmuş".

Orxan dostunun şəhid olmasından da bəhs edir: "Rəşad bir neçə saat döyüş meydanında yaralı vəziyyətdə qalıb. Döyüşlər güclü olduğu üçün onu yaralandığı vaxt döyüş meydanından çıxara bilməyiblər. Döyüş yoldaşları deyir ki, "Biz Rəşadın yanına gələndə gördük ki o, ancaq kəlimeyi-şəhadət gətirirdi".

**Müşfiq MİRZƏ,**
**"Respublika".**